# Moskva Bəyannaməsi Azərbaycanın milli maraqlarına tam uyğundur

***Azərbaycanın region dövlətləri ilə münasibətləri mehriban qonşuluq prinsiplərinə əsaslanır, etibarlı tərəfdaş kimi hər zaman öz dəyişməz mövqeyini nümayiş etdirir. Dövlətimizin başçısı cənab İlham Əliyevin siyasi fəaliyyətinin əsas qayəsini regionda sülh və təhlükəsizliyin, sabitliyin təmin olunması təşkil edir. Təbii ki, bu, region dövlətləri tərəfindən yüksək qiymətləndirilir və onlar hər biri Azərbaycanla əməkdaşlığa xüsusi önəm verirlər.***



Rusiya ilə münasibətlərimiz son vaxtlar daha yüksək səviyyədədir. Bütün sahələrdə əməkdaşlığımız yüksələn xətt üzrə inkişaf edir. Bu münasibətlər hər iki dövlətin qarşılıqlı maraqları çərçivəsində bütün sahələrdə özünü qabarıq göstərir və hər iki dövlətin milli mənafeyinə əsaslanır. İqtisadi-ticari əlaqələrimizə nəzər salsaq, görərik ki, bu sahədə ildən-ilə artım müşahidə olunur. Belə ki, hazırda əmtəə dövriyyəsinin həcmi 3 milyard dolları keçib. Bu, yüksək göstəricidir. Ölkəmizdə qeyri-neft sektorunun sürətli inkişafında da şimal qonşumuzla əlaqələr mühüm rol oynayır. Bu sahədə istehsal olunan mallar daha çox Rusiya bazarlarına ixrac olunur.

İndiyədək ölkələrimiz arasında hüquqi baza təşkil edən 245 sənəd imzalanıb. Bunların arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 1997-ci il tarixli müqavilə, dostluq və strateji tərəfdaşlıq haqqında 2008-ci il tarixli bəyannamə və hər iki ölkə prezidentinin 2018-ci il tarixli birgə bəyanatı münasibətlərimizin strateji xarakterini müəyyənləşdirib.

Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində – fevralın 22-də Moskvada imzalanan Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə artıq münasibətlərimizi strateji səviyyəyə qaldırıb. Bu da hər iki ölkənin milli maraqlarına tam cavab verir, xalqlarımız arasında mövcud olan dostluq bağlarını daha da möhkəmləndirəcək. Bəyannamə iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, təhsil, sosial sahələrdə, eləcə də səhiyyə, gənclər arasında əməkdaşlıq və idman sahəsində yaxınlaşmasında əhəmiyyətli rol oynayacaq.

Müstəqillik, dövlətlərimizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı məsələsi bəyannamədə xüsusi olaraq vurğulanır və müttəfiqlik səviyyəsinə yüksələn münasibətlərimizin əsasını təşkil edir. Burada sülh və təhlükəsizlik məsələlərinə də xüsusi önəm verilir. Təbii ki, bu da dövlətimizin maraqları ilə tam uzlaşır. Bəyannamədə Azərbaycan Prezidenti, Ermənistan baş naziri və Rusiya Prezidentinin 9-10 noyabr 2020-ci il tarixli, 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli bəyanatlarının yer alması diqqətçəkən məqamlardandır. Bildirilir ki, həmin bəyanatların müddəalarının həyata keçirilməsi üzrə səylərə bundan sonra da hər cür dəstək veriləcək.

Bütün bunlardan çıxış edərək, deyə bilərik ki, Ermənistan tərəfi imzaladığı bəyanatlarla üzərinə düşən öhdəlikləri mütləq yerinə yetirməlidir. Bu, regionda sabitliyin davamlı olması baxımdan xeyli əhəmiyyətlidir. Qeyd edək ki, Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, qalib dövlət olaraq yaratdığı yeni konfiqurasiya, regionda sülh və təhlükəsizlik naminə səyləri, görünür, bütün dövlətlər, o cümlədən, Rusiya tərəfindən də yüksək qiymətləndirilir və ölkəmizlə müttəfiqlik münasibətlərində maraqlıdır.

Moskva Bəyannaməsi Ermənistanın uydurduğu digər bir mifin məhv olmasına gətirib çıxardı. Onlar uzun illər iddia edirdilər ki, Rusiya Ermənistanın ən yaxın müttəfiqidir. Hətta işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad edərkən ermənilər Rusiyanın onlar tərəfindən döyüşəcəyini zənn edirdilər. Amma dövlətimizin başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət Ermənistanın bu niyyətlərini puça çevirdi.

Ümumilikdə, bəyannamə iki ölkə arasında mövcud olan münasibətlərin müttəfiqlik mərhələsinə keçməsinə şərait yaradır. Eyni zamanda, iqtisadi əlaqələrin inkişafına, qarşılıqlı investisiya qoyuluşunun artmasına, turizim əlaqələrinin genişlənməsinə, bununla da xalqlarımızın rifahının daha da yaxşılaşmasına yeni imkanlar açacaq.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .-2022.- 24 fevral.- S.2.